# Şəhidlik zirvəsi hünər və qeyrət simvoludur



***O, Nizami Gəncəvi məqbərəsi kompleksində bir müddət mühasib kimi fəaliyyət göstərmişdi. Bu kompleks Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun tabeliyinə verildikdən sonra isə burada ekskursiyaçı kimi çalışırdı. Vətən müharibəsi başlayanda cəsarətlə döyüşlərə atılmaq qərarını verdi. Çünki 30 ilə yaxın bir müddətdə xain düşmənin viran qoyduğu cənnətməkan Qarabağda sərgərdan qalan Vaqifin, Natəvanın, Üzeyir bəyin, Bülbülün ruhunun məzəmmətini varlığı ilə duyurdu...***

Hikmət Lətif oğlu Məmmədov 1993-cü il noyabrın 19-da Daşkəsən rayonunun Xoşbulaq kəndində doğulmuşdu. Səkkiz yaşı olanda ailəsi ilə Gəncəyə köçmüşdü. Gəncə Dövlət Universitetini bitirdikdən sonra isə həqiqi hərbi xidməti Aprel savaşı vaxtına düşmüş, elə o zamandan da igidliyi, qorxmazlığı ilə fərqlənmişdi. Cəbhədən gələn ağır xəbərlərə, oğul nigarançılığına anası Nüşabə xanımın narahat ürəyi dözməmiş, Hikmətin qayıdışını görmədən dünyasını dəyişmişdi.

Vətən müharibəsindən əvvəl, 2020-ci ilin iyulunda Tovuz istiqamətində düşmən təxribatı zamanı general Polad Həşimovun şəhadətə yetişməsi digər vətənpərvər gənclərimiz kimi, onu da bərk hiddətləndirdi və hər an Ali Baş Komandanın silaha sarılmaq əmrini gözlədi...

İkinci Qarabağ müharibəsi başlayan ilk günlərdə işdən məzuniyyət götürərək, könüllü şəkildə orduya yazıldı. Sentyabrın 22-də hərbi təlimlərə qatıldı, ayın 28-də isə erməni quldurlarının növbəti təxribatı zəminində Azərbaycan ordusu əks-hücuma başladı. Vətən müharibəsinin ilk anlarından böyük cəsarət və şücaətlə irəli atılan Hikmət oktyabrın 2-də Kəlbəcər uğrunda gedən döyüşlərdə şəhidlik məqamına yüksəldi. Oktyabrın 4-də Gəncədə torpağa tapşırıldı.

Şəhidin atası Lətif Məmmədov deyir: “Hikmətin Aprel döyüşlərinə qatılması anasının ömrünə son qoydu, indi də mənim belimi qırdı... Könüllü şəkildə orduya yazılanda evdə olmamışam, Daşkəsəndə, Xoşbulaqda idim. Kiçik qardaşı yalvarıb, gözlə, qoy atamı çağıraq... Cavab verib ki, atam neyləyəcək, mənimlə cəbhəyə gedəcək? Özünün də ayağında ciddi problem vardı, zəng vurdu, halallıq istədi, dedim, ay bala, müalicə al, sonra get. Heç vaxt sözümdən çıxmayan Hikmət bu dəfə mənə qulaq asmadı... Təki, Vətən sağ olsun!”

Onu da bildirək ki, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun rəhbərliyi şəhidin ailəsi ilə bağlı xeyirxah addım atıb: Lətif kişi Hikmətin vaxtilə çalışdığı kollektivə işə qəbul olunub. Bu, həm ailənin maddi durumuna dəstək, həm də Lətif kişinin şəhid övladının iş yoldaşları ilə sıx ünsiyyət zəminində dərdinin yüngülləşməsi deməkdir.

Şəhid Hikmət Məmmədovun orta təhsil aldığı Kəlbəcər rayonunun 98 saylı orta məktəbin direktoru Cəmşid Əlbəndov da sevimli şagirdi barədə yana-yana danışır: “44 günlük Vətən müharibəsində təhsil ocağımızın 2 şagirdi şəhadətə qovuşdu: Hikmət və Nurlan. Hər ikisinin xatirəsi bütün şəhidlərimiz kimi, hamımıza əzizdir. Hikmət təkcə mənim yox, bütün pedaqoji və şagird kollektivinin yaddaşında nümunəvi, əlaçı, bacarıqlı, təşəbbüskar yeniyetmə kimi qalıb...”.

Dostu Ədalət İsmayılov: “Uşaqlıqdan bir yerdə böyümüşük - Daşkəsəndən Gəncənin “avtozavod” deyilən ərazisindəki baba yurduna, bizimlə qonşuluğa köçmüşdülər... Məndən 4 yaş böyük idi, bütün qərar və addımlarımı onunla məsləhətləşər, müsbət nəticəsini də görərdim. Həmişə zəhmətə, təhsilə səsləyirdi. Ölüm xəbərini hələ hərbi xidmətdə olarkən eşidib heç cür inanmadım... Tərxis ediləndən sonra gəlib qəbrini ziyarət etdim, amma yenə də yoxluğuna inana bilmirəm...”.

İgid şəhidimiz Hikmət Lətif oğlunun rəşadəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib, ölümündən sonra “Vətən uğrunda” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif edilib.

***Qurban MƏMMƏDLİ,***
***jurnalist***